**İqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan–Vyetnam Hökumətlərarası Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2014-cü il mayın 19-da Hanoy şəhərində imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 iyun tarixli 202 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti ilə Vyetnam Sosialist Respublikası Hökuməti arasında iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq haqqında" Sazişin icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. İqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan–Vyetnam Hökumətlərarası Komissiyasının Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:

**Komissiyanın həmsədri**

| | | |
|---|---|---|
| *Pərviz Şahbazov* | - | *Azərbaycan Respublikasının energetika naziri.*[1] |

**Komissiyanın üzvləri:**

| | | |
|---|---|---|
| Vaqif Əliyev | - | Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin birinci müavini |
| Xələf Xələfov | - | Azərbaycan Respublikası xarici işlər nazirinin müavini |
| Sahil Babayev | - | Azərbaycan Respublikası iqtisadiyyat ~~və sənaye~~ nazirinin müavini[2] |
| Toğrul Musayev | - | Azərbaycan Respublikası ədliyyə nazirinin müavini |
| Elmir Vəlizadə | - | Azərbaycan Respublikası *nəqliyyat,* rabitə və yüksək texnologiyalar nazirinin müavini[3] |
| ~~Musa Pənahov~~ | - | ~~Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini~~[4] |
| İlham Quliyev | | Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini |
| Firdovsi Əliyev | | Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini |
| İbrahim Quliyev | | Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti |
| Anar İmanov | | Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında fövqəladə və səlahiyyətli səfiri. |

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Azərbaycan–Vyetnam Hökumətlərarası Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Vyetnam Sosialist Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 oktyabr 2015-ci il
1476

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )
2. 27 noyabr 2017-ci il tarixli **3414** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 28 noyabr 2017-ci il, 262, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2123**)
3. 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**)

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 27 noyabr 2017-ci il tarixli **3414** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 28 noyabr 2017-ci il, 262,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 11, maddə 2123** ) ilə 1-ci hissədə "**Natiq Əliyev - Azərbaycan Respublikasının energetika naziri**" sözləri "**Pərviz Şahbazov - Azərbaycan Respublikasının energetika naziri** " sözləri ilə əvəz edilmişdir.

[2] 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

[3] 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissədən "**rabitə**" sözündən əvvəl "**nəqliyyat,** " sözü əlavə edilmişdir.

[4] 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissədən "**Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini** " sözləri çıxarılmlşdır.